# XALQA MÜRACİƏT

***Güney Azərbaycan Təşkilatlarının***
***Güney Azərbaycan xalqına və***
***İran coğrafiyasında yaşayan digər Türk topluluqlarına Müraciəti***

**Güney Azərbaycan Təşkilatlarının Güney Azərbaycan xalqına və İran coğrafiyasında yaşayan digər türk topluluqlarına Müraciəti**

Əziz millətimiz!

Bu gün artıq heç kimə sirr deyil ki, İranın ən böyük milli qrupu olan Azərbaycan xalqı uzun illərdir ağır bir zülm və ədalətsizliklə üz-üzədir. Teokratik rejim öz varlığını qorumaq naminə ölkənin milli sərvətlərini əsassız ideoloji macəralara sərf etmiş, xalqın canını və malını girov saxlamışdır. Hakimiyyətin yeganə məqsədi öz mövcudiyyətini uzatmaq olmuşdur.

Son yarım əsrdə İran İslam Respublikası, başda Azərbaycan olmaqla, bu ölkədə yaşayan bütün millətlərə yalnız zülm, acı və fəlakət gətirmişdir. Bu gün əhalisinin yarıdan çoxunu Azərbaycan və digər türk topluluqlarının təşkil etdiyi İranda, rejimin terrora əsaslanan siyasəti nəticəsində minlərlə insanımız fiziki, mənəvi və psixoloji əzablar içərisində yaşamağa məcbur edilir, xalqımızın ən fundamental hüquqları isə sistematik şəkildə pozulur.

Son iki həftədə İran-İsrail münaqişəsi çərçivəsində bütün dünyanın gözü önündə bir daha şahid olduq ki, bu rejim millətləri necə ağır şərtlər altında yaşamağa məcbur edir. Bu savaşın yaratdığı faciəvi vəziyyət İran rejiminin regionu necə bir uçuruma sürüklədiyini açıq şəkildə ortaya qoyur.

Lakin təəssüf ki, belə bir tarixi və həssas məqamda bəzi radikal kürd qruplaşmaları yenidən Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürməkdə və torpaqlarımızın işğalı üçün çağırışlar verməkdədirlər. Millətlərin birgə mübarizəsi üçün əlverişli şəraitin yarandığı bir mərhələdə bu cəhdlər nə təsadüfdür, nə də sadə yerli münaqişədən ibarətdir. Bu fəaliyyətlər birbaşa, millətlərin birliyini pozmaq məqsədi daşıyır və İran rejiminin ömrünü uzatmaqdan başqa heç bir işə yaramaz.

Bu terror qruplaşmalarının Azərbaycan torpaqlarını işğal və istila çağırışları qarşısında isə mərkəzi hakimiyyətin səssizliyi, son dərəcə, mənidardır.

Məhz, belə bir vəziyyətdə Azərbaycan xalqının özü öz müdafiəsini təşkil etməkdən başqa yolu qalmır.

Şübhə etmirik ki, Azərbaycan xalqı özünü müdafiə etmək gücündədir və bu yolda bütün imkanlarını səfərbər edərək, Azərbaycan torpaqlarnda terror qruplaşmalarının barınmasına izn verməyəcəkdir. Əminik ki, bu  yolda sülhün və sabitliyin tərəfdarı olan qonşu dövlətlər və xalqlar, eləcə də, dünyanın mütərəqqi qüvvələri bizim yanımızda olacaqdır.

Bu həssas və tarixi məqamda biz, Güney Azərbaycan təşkilatları olaraq,öz torpaqlarımızda öz müqəddəratımızı təyin etmək məqsədi ilə biraraya gəldiyimizi, hər zaman olduğu kimi, bundan sonra da, bu coğrafiyada bütün xalqların barış və dayanışma içində yaşamaları ilkəsini rəhbər tutacağımızı və irq, dil, din, məzhəb və s. Ayird etmədən, bütün kəsimlərin haqq, azadlıq və

təhlükəsizliyinin təminatçısı olacağımızı və elə bu məqsədlə də, Güney Azərbaycan Təşkilatlarının Əməkdaşlıq Şurasını (GATƏŞ)  təsis etdiyimizi bəyan edir, və xalqımıza səslənirik:

- Milli birliyimizi möhkəmləndirək!
- Vətənimizi, torpaqlarımızı, milli kimliyimizi birlikdə qoruyaq!
- Qarşıdakı təhlükələrə qarşı ayıq və hazırlıqlı olaq!

AZADLIQ, ƏDALƏT, MİLLİ HÖKÜMƏT!

GƏLƏCƏK BİZİMDİR!

*Güney Azərbaycan Təşkilatlarının Əməkdaşlıq Şurası*

1. Azərbaycan Demokrat Firqəsi – ADF
2. Azərbaycan Mərkəz Partiyası – AMP
3. Azərbaycan Milli Dirəniş Təşkilatı – Dirəniş
4. Azərbaycan Öyrənci Hərəkəti – AZOH
5. Güney Azərbaycan Cümhuriyyət Partiyası – ACP
6. Güney Azərbaycan Demokrat Partiyası – GADP
7. Güney Azərbaycan İstiqlal Partisi – GAİP
8. Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi – GAMAC
9. Güney Azərbaycan Milli Dövlətçilik Şurası – MDŞ
10. Güney Azərbaycan Öyrənci Birliyi – GAOB
11. Güney Azərbaycan Qurtuluş Partiyası – GAQP